# 23 dekabr bələdiyyə seçkiləri günüdür

## Laza kəndi

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Qəmərvan bələdiyyəsinə irəli sürülmüş namizədlərlə seçicilərin görüşü keçirilmişdir. Görüşü giriş sözü ilə rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır. Sədr bildirmişdir ki, bu ilki bələdiyyə seçkiləri ölkəmizin bütün sahələrdə sürətlə inkişaf etdiyi dövrdə keçirilir. Bu ikişafda artıq 20 ildir ki, ölkəmizdə fəaliyyətdə olan bələdiyyələrin də rolu var. Bununla belə yeni seçiləcək bələdiyyələr ölkəmizdə başlanmış dərin islahatlar nəticəsində qarşıya çıxan vəzifələrin öhdəsindən gəlməlidirlər. Yeni Azərbaycan Partiyası əmindir ki, seçicilər bu partiyanın irəli sürdüyü namizədlərə səs verəcək, öz növbəsində də yeni formalaşan bələdiyyələr etimadı doğruldacaqlar.

Bələdiyyə üzvlüyünə namizədlər Nizaməddin Balıyev, Rəhman Mürsəlov, Xasay Dadaşov, Soltan Şirinov çıxış edərək seçiləcəkləri halda görəcəkləri işlərdən danışmışlar. Ötən seçkilərdə bələdiyyədə təmsil olunmuş və yenidən namizədlikləri irəli sürülmüş YAP üzvləri ötən dövr ərzindəki fəaliyyətləri barədə hesabat vermişlər.

Bələdiyyə üzvlüyünə namizədlər seçicilərin suallarını cavablandırmışlar.

## Qəmərvan kəndi

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Qəmərvan bələdiyyəsinə irəli sürülmüş namizədlərlə seçicilərin görüşü keçirilmişdir. Görüşü rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır. Rayon təşkilatının sədri bildirmişdir ki, ölkəmizdə, rayonumuzda gedən sosial-iqtisadi inkişafı dağ kəndi Qəmərvanın timsalında görmək mümkündür. Kəndə asfalt yol, təbii qaz xətti çəkilmiş, burada müasir məktəb binası, bir-birindən yaraşıqlı fərdi yaşayış evləri tikilmişdir. Ölkəmiz sosial-iqtisadi inkişafın, köklü islahatların yeni mərhələsinə qədəm qoyub. Bu sahədə bələdiyyələrin üzərinə də böyük vəzifələr düşür. Bələdiyyələr işlərini daha çevik qurmalıdırlar.

Bələdiyyə üzvlüyünə namizədlər, əvvəlki beş ildə bələdiyyədə təmsil olunmuş Namizəd Qasımov, Rəna Hacıyeva, Gülpəri Əliyeva çıxışlarında fəaliyyətləri barədə hesabat vermiş, yenidən seçicilərin etimadını qazanarlarsa nəzərdə tutduqları proqramlarından danışmışlar.

Seçicilərdən Yeganə Eyvazova və başqaları çıxış edərək ucqar dağ kəndi sayılan Qəmərvanda həyata keçirilən abadlıq, quruculuq, sosial layihələrə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər. Onlar qeyd etmişlər ki, ölkə başçısının rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər.

## Bərabər hüquqla

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı ilə birgə rayonumuzdakı bələdiyyələrin üzvü olan qadınlarla təlim keçirilmişdir.

Təlimi giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır.

İcra hakimiyyəti başçısının müavini ölkəmizdə gender bərabərliyini təmin etmək üçün aparılan uğürlü siyasətdən, onun nəticələrindən danışmışdır. Ətayə Osmanova vurğulamışdır ki, ölkəmizdə gender bərabərliyini, qadınların ictimai həyatda fəal iştirakını təmin etmək üçün ulu öndər Heydər Əliyev tərəfindən başlanılan işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Qadınlar cəsarətlə dövlət və özünüidarəetmə orqanlarına rəhbər vəzi-



fələrə irəli çəkilir və bu vəzifələrdə müvəffəqiyyətlə çalışırlar.

Ətayə Osmanova rayonda gender bərabərliyinin təmin edilməsi, qadınların rəhbər vəzifələrə təyinatı məsələləri barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Sonra Respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Elgün Səfərov «Gender bərabərliyi dövlət siyasəti, müqayisəli statistika, milli qanunvericilik» mövzusunda məruzə etmişdir.

Sonra tədbir «Bələdiyyələrdə fəaliyyət göstərən nümayəndələrin imkanlarının genişləndirilməsi, liderlik keyfiyyətinin inkişafı, mentor prosesi» mövzularında qruplarda davam etmişdir.

Tədbir «Dövlət qadın siyasəti» adlı qısametrajlı filmin nümayişi ilə başa satmışdır.

**«Qəbələ»**
**Səfa Aslanov (foto).**

# Maarifləndirmə tədbirləri

## Növbəti maarifləndirmə tədbiri Qəbələdə təşkil olunub

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların pre-



kursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrası ilə bağlı növbəti maarifləndirmə tədbiri Qəbələ Dövlət Peşə Təhsil mərkəzində təşkil edilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasındın İşçi qrupunun və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi tədbirdə narkotiklərin insan orqanizminə məhvedici təsiri, cəmiyyətə və insanların sağlamlığına ziyanı və törətdiyi sosial bəlalar, QİÇS və bir sıra başqa yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması barədə ətraflı məlumat verilib. Eyni zamanda, belə tədbirlərə ictimaiyyətin, din xadimlərinin cəlb edilməsi, bələdiyyə, polis orqanları, təhsil işçiləri, əmək kollektivləri və müvafiq komissiyalar arasında əlaqələrin genişləndirilməsi haqqında tövsiyələr də diqqətə çatdırılıb. Həmçinin tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, müzakirələr aparılıb.

**«Qəbələ»**

## “Şəhərdən Kəndə” layihəsi çərçivəsində regionlarda fermerlərlə görüşlərə start verilib

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan “Aqrar Tədarük və Təchizat” ASC (ATT) tərəfindən həyata keçirilən “Şəhərdən Kəndə” layi-



həsi çərçivəsində Qəbələ rayonunda fermerlərlə görüş keçirilib. Görüşdə yerli fermerlərə ölkəmizdə həyata keçirilən ilk aqroekoturizm layihəsi olan “Şəhərdən Kəndə” barədə ətraflı məlumat verilib, onlar layihəyə qoşulmağa dəvət olunub.

Həmçinin ATT nümayəndə heyəti tərəfindən yerli fermerlərin təsərrüfatlarına baxış keçirilib, kənd turizmi üçün uyğun olan təsərrüfatlar qeydə alınıb.

Qeyd edək ki, “Şəhərdən Kəndə” layihəsinin əsas məqsədi kiçik və orta fermer təsərrüfatlarını inkişaf etdirmək, fermerlər üçün alternativ satış kanalı və gəlir mənbəyi, eləcə də şəhər əhalisi üçün yeni turizm imkanı yaratmaqdır.

**«Qəbələ»**

## Nic qəsəbəsində

Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 3-cü qrant müsabiqəsinin qalib layihələrindən




olan ”Fərqli mədəniyyətlər və istedadlar bir bayraq altında” layihəsi çərçivəsində noyabrın 25-də Nic qəsəbə 2 nömrəli tam orta məktəbində növbəti tədbir keçirilib.

Tədbirdə layihənin iştirakçısı olan yəhudi, avar, zaxur, ingiloy və udi xalqlarının məktəbliləri və müəllimləri iştirak ediblər.

Məktəblilər qəsəbədəki tarix-mədəniyyət abidələri və turizm məkanı ilə tanış olublar. Onlara rayonun, eləcə də Nic qəsəbəsinin tarixi, mədəniyyəti, əhalinin etnik tərkibi barədə məlumat verilib.

Qəsəbədəki 2 nömrəli məktəbin akt zalında keçirilən rəsmi hissədə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxış edərək həyata keçirilən tədbirin əhəmiyyətindən danışıb.

Bildirilib ki, layihənin əsas məqsədi məktəblilər arasında biliyə marağın artırılması, Azərbaycan tarixinin və mədəniyyətinin, milli mənəvi dəyərlərin təbliği, onlarda vətənpərvərlik ruhunun aşılanmasıdır.

Həmin gün layihənin ardıcıllığını özündə əks etdirən sənədli filmin çəkilişi aparılıb.

Növbəti görüşlərin isə Zaqatala rayonundakı Car, Əliabad, Suvagil kəndlərində və son olaraq Bakı şəhərində yəhudilərin təhsil aldığı 46 nömrəli tam orta məktəbdə təşkil edilməsi nəzərdə tutulub.

**“Qəbələ”**

## Məktəblilərimiz festivalın qalibi olublar

Rayonumuzun məktəbliləri Göyçay Gənclərin İnkişaf Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən yaradıcılıq festivalında uğur qazanıblar. Festival böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəziminin 650 illik yubileyinə həsr olunub. Göyçay, İsmayıllı və Qəbələ rayonları məktəblilərinin qatıldığı festivalda rayonumuzu şəhər 1,2 və 3 nömrəli tam orta məktəblərinin şagirdləri təmsil edib.

Festivalda Nəsimiyə aid rəsmlər nümayiş olunub, şeirlər səslənib, səhnəciklər göstərilib.

Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdlərinin “Nəsiminin edamı” səhnəciyi tamaşaçılar tərəfindən maraqla izlənilib. Münsiflər heyəti həmin səhnənin ifaçılarını festivalın qalibi elan edib. Məktəblilərimizin çıxışı 1-ci dərəcəli sertifikatla və hədiyyələrlə mükafatlandırıb.

**Şəlalə ZƏKƏRİYYƏYEVA,**
**rayon təhsil şöbəsinin metodisti.**